# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PRAQA SAMMİTİNDƏ ÇIXIŞI ZAMANI ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANA TUTARLI CAVABI

**Praqada dövlət və hökumət başçılarının iştirakı il keçirilən "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəni müdafiə edərək həmkarı Sarkisyana qarşı səsləndirdiyi ittihamlar həm ölkə daxilində, həm də beynəlxalq aləmdə çox yüksək dəyərləndirilir**

Dövlətimizin başçısı cənab İlham Əliyevin həmişə dünyada ədalətin və haqqın tərəfdarı olduğu, zaman-zaman bu məsələlərlə bağlı istər ölkə daxilində, istərsə də ən nüfuzlu beynəlxalq tribunalarda kəskin və obyektiv çıxışlar etdiyi bəllidir. Xüsusən də Ermənistanın ölkəmizə qarşı yürütdüyü işğalçılıq, soyqırım, etnik təmizləmə və terrorçuluq siyasətinin ifşası Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindəndir. Bununla belə, dünya ictimaiyyəti Praqada keçirilən Avropa İttifaqının Şərq tərəfdaşlığı Proqramının 5 illiyinə həsr olunmuş sammitdə Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa Ermənistanın dövlət başçısı Serj Sarkisyana ünvanlanan və yerində deyilmiş çox kəskin ittihamlarının şahidi oldular. Buna birbaşa səbəb isə S. Sarkisyanın erməni xislətinə uyğun sammitdə Türkiyə nümayəndəsinin iştirak etməməsindən sui-istifadə edərək qardaş ölkəyə, onun rəhbərlərinə qarşı böhtan dolu çıxışı idi.

Prezident İlham Əliyev sammitdəki tarixi çıxışında hər şeydən öncə nəzərə çatdırdı ki, Ermənistan prezidenti Serj Sarkisyan Zirvə görüşünün plenar iclasında öz çıxışını bütünlükdə qondarma erməni soyqırımı ilə bağlı mülahizələrə həsr edib. Türkiyənin Sammitdə təmsil olunmamasından sui-istifadə edən Ermənistan prezidenti bununla da Zirvə görüşünün plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma soyqırımı məsələsini qabardıb və Türkiyəni əsas tənqid hədəfi kimi seçib. Serj Sarkisyan bir tərəfdən Türkiyəni qondarma soyqırımı ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edib və bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyib. Ermənistan prezidenti çıxışında hər cəhdlə inandırmağa çalışıb ki, Avropa ictimaiyyəti qondarma soyqırımı ilə bağlı daha təsirli mövqe tutmalıdır.

Cənab İlham Əliyev daha sonra birbaşa Ermənistan prezidentini və ermənilərin yürütdüyü sərsəm siyasəti ifşa edərək demişdir: "Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub. Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl - Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan, ümumilikdə, 7 Azərbaycan rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir".

Praqa sammitinin Avropa, eləcə də dünyanın siyasi arenası üçün böyük əhəmiyyətini nəzərə alsaq, Prezident İlham Əliyev bu çıxışında həm də dünya dövlətlərinin başçılarının, politoloqların və ümumiyyətlə dünya ictimaiyyətinin diqqətini bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzanmasında məhz kimin günahkar olduğuna, kimin qeyri-konstruktiv mövqe tutduğuna, beynəlxalq hüquq norma və prinsiplərini kobudcasına pozduğuna yönəltdi.

Aqzərbaycanın torpaqları hələ də işğal altındadır. Ermənilərin 200 ildən artıq davam edən soyqırım, etnik təmizləmə, terrorçuluq və işğalçılıq siyasəti bu gün nəinki Cənubi Qafqaz, eləcə də dünya üçün ciddi təhdid yaradır. İşğalçının yerində oturdulması daha böyük faciələrə gətirib çıxara bilər. Dövlətimizin başçısının sammitdə vurğuladığı kimi, bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq, bu günədək davam edir. Ermənistan bu qətnamələrə məhəl qoymur və nə tarixən, nə də beynəlxalq hüququn normalarına əsasən onlara aid olmayan ərazinin işğalını davam etdirir.

Nüfuzlu politoloqların qənaətinə görə, Praqa sammitinin ən böyük nəticəsi Azərbaycan-Türkiyə dostluğunun, strateji əməkdaşlığının dünya səviyyəsində açıq, səmimi nümayişi idi. Belə ki, münaqişə başlayandan və müstəqil Azərbaycan dövləti zorən müharibəyə cəlb ediləndən, işğala məruz qaldıqdan sonra Türkiyə həmişə ölkəmizin haqq işini müdafiə edib, Ermənistanla sərhədlərin bağlanması da məhz onların işğalçılıq siyasəti və bu bundan əl çəkmək istəməmələri ilə bağlıdır. Bunu Türkiyə tərəfi dəfələrlə və açıq şəkildə bəyan edib. Həmin reallığı bütün dünya bilir. Bu dəfə isə dünya ictimaiyyəti Prezident İlham Əliyevin timsalında nəinki Azərbaycanın, eləcə də Türkiyənin haqq işinin əsaslı müdafiəsinin, bu ədalətli məsələdə mahir diplomatik hucumunun şahidi oldu.

Dövlətimizin başçısı sammitdəki çıxışında Türkiyə-Ermənistan əlaqələrinə toxunaraq Baş nazir Ərdoğan hələ bir neçə il öncə bəyanatla çıxış edərək Ermənistanın rəhbərliyinə bütün arxivləri açmağı təklif etdiyini xtırladaraq bildirib ki, bu, tarixçilərin iki xalq arasındakı münasibətlərin tarixi məqamlarını nəzərdən keçirmələri üçün zəruri idi. Həqiqətən də, tarixi hadisələri ilk növbədə məhz tarixçilər araşdırmalıdırlar. Ancaq bu təklif adekvat cavabla qarşılanmadı. Çünki ermənilərə, Ermənistan rəhbərliyinə tarixi həqiqət yox, uydurma soyqrim, uydurma Ermənistan dövləti, özgə torpaqlar gərəkdir. Ermənilərin bütün siyasəti həqiqət üzərində deyil, yalnız yalan, iftira üzərində köklənib. İndi Türkiyəni qondarma soyqırımı ilə təhdid edən ermənilər unutmasınlar ki, Birinci Dünya Müharibəsi dövründə Çar Rusiyasının Türkiyəyə hücumu və ərazilərinin işğalında ermənilər də böyük rol oynayıb və əslində sığındıqları dövlətə arxadan xəyanətkar zərbə vurub. Bununla yanaşı, ruslar tərəfindən müvəqqəti olaraq ələ keçirilmiş Türkiyənin şəhər və kəndlərində erməni əsgərləri dinc əhaliyə vəhşicəsinə divan tutmuş, onları anbarlara salaraq diri-diri yandırmışlar. Bunu tarix faktlar da, məsələn, həmin illərdə Türkiyədə vuruşmuş Çar Rusiyasının zabitləri öz məqalə və xatirələrində birmənalı olaraq təsdiqləyir. Təbii ki, həmin dövrdə erməni xəyanətkarları öz cəzalarını alıblar, eləcə də müharibədə arxadan zərbə almamaq üçün ermənilər daha arxa ərazilərə köçürülüblər ki, bu da müharibə aparan bir ölkə üçün zəruri tədbirlər idi.

Buna baxmayaraq, Türkiyənin Baş naziri T.Ərdoğan erməni əsilli insanlara başsağlığı verdi, ancaq təəssüf ki, buna da Ermənistan tərəfindən müvafiq reaksiya verilmədi. Dövlətimizin başçısı cənab İlham Əliyev bu nüanslara da xüsusi toxunub: "Baxmayaraq mən bilirəm ki, Birləşmiş Ştatlar və Avropa İttifaqı Türkiyə Baş nazirinin mövqeyini yüksək qiymətləndirdilər, ancaq görünür, bu, Ermənistan hökuməti üçün kifayət deyildir. Bu, aydın göstərir ki, regionda sülh istəməyən kimdir. Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır. Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır".

Prezident İlham Əliyevin bu çıxışı dünya mətbuatının, xüsusən də Türkiyə KİV-lərinin diqqətindədir. Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəni müdafiə edərək həmkarı Sarkisyana qarşı səsləndirdiyi ittihamlar Türkiyə mediasının gündəmindədir. **Türkiyə mediası bunu Əliyevdən Ermənistana sillə kimi cavab adlandırıb və Sarkisyana birbaşa ünvanladığı "Türkiyə burada yoxdur, mən buradayam" ifadələrini manşetə çıxarıb.** Türkiyənin rəsmi informasiya agentliyi olan Anadolu bu xəbəri "Əliyevdən Ərdoğana dəstək" başlığı ilə təqdim edib. Ərdoğana yaxınlığı ilə bilinən "Sabah" və "Yenişafak" qəzetləri xəbəri müvafiq olaraq Əliyevdən Ermənistana sillə kimi cavab və "Əliyevdən Sarkisyana Türkiyə dərsi" başlığı ilə veriblər. "Haber Türk" qəzetində dərc olunmuş məqalədə bildirilir ki, Praqada keçirilən "Şərq tərəfdaşlığı" sammitində Ermənistsan prezidenti Serj Sarkisyanın Türkiyənin ünvanına söylədiyi tənqidi fikirlərə Azərbaycan Prezidenti İlham Əliyev sərt cavab verib. "Ensonhaber" saytı isə xəbəri "Ermənistan prezidentinin gözlərinin içinə baxaraq, "Türkiyə burada deyil, mən varam" kimi təqdim edib. Türkiyənin ən çox oxunan xəbər saytlarından olan "Milliyet" isə Əliyevin çıxışını Türkiyəni ittiham edərkən elə bir tənqid eşitdi ki..."

"Radikal" qəzeti "Sarkisyanın Türkiyəni tənqid etmiş və Əliyevdən sərt təpgi", "Akşam" qəzeti "Türkiyə nümayəndələri burada yoxdursa, mən varam", "Posta" "Əliyevdən Ərdoğana dəstək", "Cümhuriyyət" "Türkiyəni tənqid edən Sarkisyana Əliyevdən sərt cavab", "Hürriyət Daily News" "Sarkisyan Türkiyəni tənqid edərkən Əliyev rəsmi Ankaranın müdafiəsinə qalxdı" kimi fikirləri manşetə çıxarıb.

Türkiyənin "TQRT", "TRT Türk", "TRT Avaz", "TRT Haber" və digər televiziya kanallarında yayımlanmış, eləcə də "Doğan", "İhlas" agentlikləri, "Haberler" və digər xəbər portlarında yerləşdirilmiş şərhlərdə qeyd olunur ki, Praqa sammitində Ermənistan prezidenti rəsmi Ankaranı qondarma "soyqırım" ilə bağlı konstruktiv mövqe tutmamaqda ittiham etmiş, bu ölkənin Avropa İttifaqına üzvülüyünü guya yolverilməz olduğunu demişdir. Əvəzində Azərbaycan Prezidenti İlham Əliyevdən sərt və tutarlı cavab almışdır. Yazılarda deyilir ki, bu sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının daha bir təsdiqidir.

"Əl-Cəzirə" türk televiziyasının saytında yerləşdirilən "Əliyevdən Sarkisyana Türkiyə cavabı" sərlövhəli məqalədə də dövlətimizin başçısı İlham Əliyevin cəsarətli çıxışından bəhs olunur. Məqalədə bildirilir ki, Praqa Sammitində Türkiyəyə qarşı əsassız ittihamlarla hücuma keçən Sarkisyana sərt cavab verən Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm".

Yazıda Azərbaycan Prezidentinin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın 1915-ci il hadisələri ilə bağlı başsağlığı verməsinə Ermənistan tərəfindən müvafiq reaksiyanın olmadığını bildirməsi xüsusi vurğulanıb: "Baş nazir Ərdoğan bir neçə il öncə bəyanatla çıxış edərək Ermənistanın rəhbərliyinə bütün arxivləri açmağı təklif etmişdi ki, tarixçilər iki xalq arasındakı münasibətlərin tarixi məqamlarını nəzərdən keçirsinlər. Ancaq bu təklif adekvat cavabla qarşılanmadı. Dünən isə Baş nazir Ərdoğan erməni əsilli insanlara başsağlığı verdi, ancaq təəssüf ki, buna da Ermənistan tərəfindən müvafiq reaksiya verilmədi".

Məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ikili standartların olması, eləcə də işğalçı ölkənin bölgədə sülh istəmədiyi barədə dövlətimizin başçısının sözləri xüsusilə diqqətə çatdırılıb: "Birləşmiş Ştatlar və Avropa İttifaqı Türkiyə Baş nazirinin mövqeyini yüksək qiymətləndirdilər, ancaq görünür, bu, Ermənistan hökuməti üçün kifayət deyildir. Bu, aydın göstərir ki, regionda sülh istəməyən kimdir. Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır. Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır".

Azərbaycan xalqı bir sual verir: "Niyə Ermənistana sanksiyalar qoyulmur? Niyə Avropa Şurasındakı Ermənistan nümayəndə heyəti səsvermə və söz hüququndan məhrum edilmir? Onlar digər bir ölkənin ərazilərini işğal ediblər, beynəlxalq hüquq normalarını pozurlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini kobud şəkildə pozurlar və heç bir sanksiya tətbiq edilmir, heç bir cəza verilmir. Qanunsuz, kriminal Dağlıq Qarabağ rejiminin qondarma nümayəndələri Avropa paytaxtlarına vizalar alırlar. Bu dözülməzdir və buna son qoyulmalıdır". Yazıda Azərbaycan Prezidentinin bu mövqeyi Türkiyəyə əsl qardaşlıq dəstəyi kimi dəyərləndirilir.

**Xəlil CABBAROV,**
**"Respublika".**